**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**KİFAYƏT XANLAR qızı ƏHMƏDOVA**

# GƏNC AİLƏLƏRDƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

6107.01 – Ümumi psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

İş Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi psixologiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru, əməkdar müəllim, professor **Ramiz İbrahim oğlu Əliyev**

Rəsmi opponentlər: pedaqogika üzrə elmlər doktoru, professor **Hikmət Əbdül oğlu Əlizadə**

psixologiya üzrə fəlsəfə doktoru, dosent **Elnarə Əhməd qılzı Əhmədova**

Aparıcı təşkilat: **Bakı Slavyan Universitetinin "Pedaqogika və psixologiya" kafedrası**

Müdafiə "_____" "_____________" 2018-cı il saat___ da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2018-ci ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi

psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Respublikamızın həyatında baş verən sürətli dəyişikliklər, beynəlxalq əlaqələrin getdikcə dərinləşməsi, sosial-iqtisadi sahədə qazanılan nailiyyətlər bir tərəfdən cəmiyyətin əsas təsissatlarından olan ailə institutunu möhkəmləndirir, digər tərəfdən isə ailədaxili müansibətlərin yeni prinsiplər üzərində qurulmasına zəmin yaradır. Lakin özünün müsbət cəhətləri ilə yanaşı dəyişikliklər və inteqrasiya prosesi yeni dəyərləri də cəmiyyətə transformasiya edir. Dəyərlərin dəyişməsinə hazır olmayan və ya adaptasiya prosesi zəif olan gənc ailələrdə istər-istəməz münasibətlər sistemində neqativ hallar özünü göstərir, konfliktlər ortaya çıxır.

Qeyd etmək lazımdır ki, belə bir dinamik şəraitdə gənc ailələrdə qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətlərinin öyrənilməsi bir tərəfdən ailə münasibətlərinin gələcək istiqamətlərini proqnozlaşdırmağa, digər tərəfdən isə gənc ailənin münasibətlər sistemində qarşılaşdığı neqativ halların aşkarlanmasına şərait yaradır.

Gənc ailələr cəmiyyətin inkişafının aparcı özəkləridir. Onun münasibətlər sistemindəki çatışmazlıqların vaxtında üzə çıxarılması həm də cəmiyyətdə mövcud olan psixoloji iqlimin sağlamlaşdırılması baxımından da aktualdır.

Faktlar göstərir ki, ailə təsissatının monolotliyi və möhkəmliyi bir çox hallarda gənclərin dəyərlər sistemidən,onların şəxsiyyətinin istiqamətindən, milli-etnik xüsusiyyətlərindən asılı olsa da, bir çox hallarda ailənin uzunömürlüyü onun üzvlərinin qarşılıqlı münasibətləri ilə və həmin münasibətlərin səviyyələri ilə şərtlənir. Bu münasibətlərin psixoloji mexanizmlərinin açılması və onun ailə həyatına təsirinin tədqiqi gənc ailələrdə ailənin qorunub saxlanmasına şərait yaradır, cəmiyyət həyatında ailədaxili münasibətlərdəki neqativ halların aradan qaldırılmasına imkan verir.

Nəzərə almaq lazımdır ki, bir sıra amillərin təsirindən əksər ailələr elə gənc ailə statusunda olarkən dağılır və boşanmalar artır. Bu dövrdə ailəni gözlənilən böhranlardan qurtarmaq üçün qarşılıqlı münasibərlərin psixoloji cəhətlərinin öyrənilməsinə daha çox üstünlük verilməli, zəruri olan bir çox problemlər hərtərəfli araşdırılmaalıdır.

Faktlar göstərir ki, ailə həyatının və onun müxtəlif aspektlərinin öyrənilməsinə həsr olunmuş tədqiqatların sayı dinamik olaraq

artmaqdadır. Ancaq ailə münasibətlərinin öyrənilməsi istiqamətlərində bir sistemsizlik və fərqli milli-etnik mühit nəzərə çarpır ki, bu da gənc ailələrin psixoloji problemlərinə həsr olunmuş tədqiqatların mexaniki şəkildə bizim etnik mühitə köçürülüməsinə imkan vermir. Nəzərə almaq lazımdır ki, gənc ailə və ona müasir dövrdə verilən psixoloji tələblər ailə mühitinin və ailədaxili münasibətlərin birbaşa cəmiyyət həyatında oynadığı proseslərdən də asılıdır. Bu baxımdan cəmiyyət həyatı dəyişkəndir və onun təsiri ilə gənclərin ailə həyatına hazırlığı və ailə həyatında davranış prinsipləri, münasibətləri dəyişir. Belə bir şəraitdə gənc ailələrdə qarşılıqlı münasibətlərin xarakterində əmələ gələn psixoloji məqamların tədqiqi həm cəmiyyət üçün, həm də ailə üçün mühüm əhəmiyyət kəsb edir. Bütün bunları nəzərə alıb "Gənc ailələrdə qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətləri" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Ailə tərbiyəsi, ailədə qarşılıqlı münasibətlər, ailə həyatına hazırlıq məsələləri, gənc ailə problemləri həmişə müxtəlif elm sahələrinin tədqiqatçılarının diqqət mərkəzində olmuşdur.

Ailə problemləri fundamental problemlər kimi müxtəlif psixoloji məktəblərdə, o cümlədən Z.Freydin, K.Yunqun, K.Rocersin, A.Maslonun tədqiqatlarında ümüumi aspektdən öz əksini tapmış, ailənin funksiyası, ailə-nigah problemləri, ailənin idarə olunması, ailədə ünsiyyət üslubu və s. məsələlər araşdırılmışdır.

Xarici ölkə psixoloqlarından gənc ailənin problemləri A.K.Volkova, L.Y.Qozman, E.İ.Şlyagina, A.B.Dobroviç, A.Q.Kovalyov, M.İ.Lisina, A.V.Petrovski, N.Y.Solovyov, və b., pedaqoqlardan Y.P.Azarov, L.M.İvanova, S.V.Kovalyov, Z.İ.Vasilyeva, S.Q.Senko, Z.Biçman, N.İ.Boldarev, İ.S.Marinenko, V.A.Suxomlinski və b., psixiatr və psixoterapevtlərdən E.Q.Eydemiller, V.V.Yustitski, T.D.Demidenko, A.İ.Zaxarov, S.Y.Kupryanov, Q.K.Uşakov və b., sosioloqlardan N.Q.Yurkeviç, A.Q.Xarçev, M.Ceyms, M.Kendel və b. tərəfindən araşdırılmışdır. Bu tədqiqatlarda gənc ailənin münasibətlər sistemi, ailədaxili münasibətlər və s.daha geniş araşdırılmışdır.

Ailə ilə bağlı müxtəlif istiqamətli tədqiqatlar Azərbaycan psixoloq və pedaqoqlarının da daim diqqət yetirdiyi sahələrdəndir. Psixoloqlardan B.H.Əliyev, Ə.S.Bayramov, R.H.Qədirova, K.R.Əliyeva, M.Ə.Həmzəyev, Ə.Ə.Əlizadə, R.İ.Əliyev, T.T.Babayeva,

G.B.Əliyeva, G.Qurbanova, R.F.İbrahimbəyova, L.M.Qurbanova, N.T.Rzayeva, N.Z.Çələbiyev və b., pedaqoqlardan H.Ə.Əlizadə, N.M.Muxtarova, Y.R.Talıbov, Z.İ.Qaralov, O.Q.Həsənli, Ə.Ş.Həşimov və b. bu sahədə tədqiqatlar aparmışlar. Fərqli, bəzən də bir-biri ilə ziddiyyət təşkil edən fikir və mövqelər olsa da, qəbul edilən ümumi bir fikir də vardır ki, şəxsiyyətin formalaşması, psixi inkişaf, milli-mənəvi dəyərlər, vətəndaş mövqeyinin formalaşması, hətta cəmiyyətin inkişafı ailə tərbiyəsindən, ailə mühitindən, ailədəki qarşılıqlı münasibətlərin necəliyindən çox asılıdır. İstənilən halda, hər bir ailənin özünəməxsus xüsusiyyətlərinin olması ilə yanaşı oxşar, ümumi cəhətləri də vardır. Bu, ailənin dərin köklərlə xalqın minilliklər boyu formalaşan milli adət-ənənələri, tərbiyə üsulları ilə bağlıdır. Bir sıra psixoloji tədqiqatlar (V.A.Suxomlinski, İ.S.Kon, Ə.Ə.Əlizadə, R.İ.Əliyev və b.) göstərir ki, şəxsiyyətin formalaşması fərdi xüsusiyyətlərlə yanaşı, sosial mühitdən, ətrafdakı insanlardan, ünsiyyət dairəsindən və s. çox asılıdır.

Göründüyü kimi, ailənin funksiyası, strukturu, idarə olunması, tərbiyə üsulu, qarşılıqlı münasibətləri və s. kifayət qədər öyrənilsə də, onun bir çox sahələri hələ də kifayət qədər araşdırılmamışdır. Xüsusilə gənc ailə, onun psixoloji problemləri, münaqişə, onun baş vermə səbəbləri və aradan qaldırılması yolları kimi məsələlər özünün tədqiqini gözləyir. Bununla yanaşı, Azərbaycan ailələrinin özünəməxsusluğu, sosial-iqtisadi, demoqratik amillərin ailəyə ciddi təsiri nəticəsində baş verən sürətli dəyişikliklər problemə yenidən, fərqli mövqedən yanaşmağı tələb edir. Bu da problemin bir daha aktual olduğunu göstəirir.

**Tədqiqatın obyekti** gənc ailələrin psixoloji xüsusiyyətləridir.

**Tədqiqatın predmeti** gənc ailələrdə qarşılıqlı münasibətlərin formalaşmasına təsir göstərən amillər, ailədə qarşılıqlı müansibərlərin təzahür xüsusiyyətləridir.

**Tədqiqatın məqsədi** gənclərin ailə həyatına münasibətinin çalarlarının, ailə həyatına hazırlığın psixoloji məsələlərin, gənc ailələrdə qarşılıqlı psixoloji mühitin və qarşılıqlı münasibətlərin formalaşmasına təsir edən amillərin müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın fərziyyəsi**. Gənc ailələrdə qarşılıqlı münasibətlərin xarakteri gənclərin ailə haqqında təsəvvürləri ilə real ailə həyatının uyğunluğundan, ailə həyatına münasibətinin adekvatlığından, gənc ər və arvadın sərvət dəyərlərinin və mövqeyinin uzlaşması ilə şərtlənir.

Əsas fərziyyəyə uyğun olaraq bir əlavə **fərziyyə** də götürül-

müşdür:

- Əgər gənc oğlan və qızlarda ailə quranadək ailə həyatı haqqında düzgün təsəvvürlər formalaşdırılarsa, onlar ailə həyatına hazırlanarsa, onların ailə həyatına adaptasiyası asan olar.

**Tədqiqatın vəzifələri**. Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı vəzifələrin həlli vacib hesab olunmuşdur:

- Problemlə bağlı müvafiq pedaqoji, psixoloji ədəbiyyatın sistemli təhlilinin verilməsi, bu əsasda məsələyə yanaşmanın nəzəri aspektlərinin müəyyənləşdirilməsi;
- Ailə həyatına dair Azərbaycan mütəfəkkirlərinin fikirlərinin psixoloji təhlilinin verilməsi;
- Gənclərin sosiallaşması və bu əsasda onların ailə həyatına münasibətinin psixoloji xüsusiyyətlərinin araşdırılması;
- Gənc ailələrdə valideyn-övlad münasibətlərinin və bu münasibətlərdən asılı olaraq uşaq şəxsiyyətinin inkişaf xüsusiyyətlərinin öyrənilməsi;
- Gənc ailələrdə qarşılıqlı münasibətlərin formalaşmasına təsir edən amillərin üzə çıxarılması;
- Gənc ailələrdə qarşılıqlı münasibətlərin formalaşmasında sosial-koqnitiv və sosial persepsiyanın rolunun müəyyənləşdirilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Tədqiqatın metodoloji əsasını Ə.Ə.Əlizadə və Ə.S.Bayramovun ailəıdaxili münasibətlər, şəxsiyyətin formalaşdırılması və qarşılıqlı münasibətlərin strukturu haqqında elmi müddəaları təşkil edir.

Tədqiqatda anket sorğusundan istifadə olunmuş, alınmış nəticələr kəmiyyət və keyfiyyət baxımından təhlil olunmuşdur. Tədqiqat zamanı 163 nəfər gənc ailə üzvü, 275 tələbə, eləcə də müəllim və yaşlı nəslin nümayəndələri ilə söhbət aparılmışdır. Müxtəlif insanlarla aparılan söhbətlər bir-birilə tutuşdurulmuş, oxşar və fərqli cəhətlər üzə çıxarılmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Əvvəlki tədqiqatlardan fərqli olaraq bu tədqiqat işində gənclərin ailə həyatı ilə bağlı təsəvvürləri və onların formalaşması istiqamətləri müəyyən edilmiş, gənclərin ailə həyatı haqqındakı təsəvvürləri ilə ailə qurduqdan sonrakı təsəvvürləri müqayisə edilmiş, valideyn-övlad münasibətlərinə və gənc ailəddə psixoloji iqlimin formalşmasına təsir göstərən amillər aşkarlanmış, ailə həyatına şəxsiyyətin formalaşmasına onun təsiri müəyyən edilmişdir.

Bununla yanaşı aşkar edilmişdir ki, gənc ailənin asudə vaxtının düzgün təşkili, ondan səmərəli şəkildə istifadə olunması, ailə təsərrüfatının birlikdə idarə edilməsi ailədə ünsiyyəti və emosional bağlılığı gücləndirir, qarşılıqlı anlaşma yaradır. Əks halda qarşılıqlı ittihamlar, narazılıqlar özünü göstərir. Aydın oldu ki, gənc ailələrdə ailədaxili münasibətlərin xarakteri bir çox amillərlə yanaşı ailə həyatı haqqında təsəvvürlərlə real ailə həyatının uzlaşmasından da asılıdır.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- Gənc ailələrdə ailədaxili münasibətlərin xarakteri bir sıra amillərlə yanaşı onların ailə həyatı haqqında təsəvvürlərindən, o cümlədən gənclərin ailə həyatına hazırlığının psixoloji xüsusiyyətlərindən də asılıdır.
- Alədaxili münasibətlərin pozitivliyi, validyenlərin öz aralarında harmonik psixoloji iqlim yaratması və uşağa münasibətinin xarakteri gənc ailənin uzunömürlüyünü təmin edən amillərdəndir. Bununla yanaşı gənclərin ailə həyatı qurmağa münasibətləri onların sosiallaşma səviyyəsi ilə birbaşa bağlıdır.
- Gənc ailələrdə sərvət dəyərlərinin uzlaşmamsı, ailədaxili konfliktlərin, boşanmaların, ailə münasibətlərində harmoniyanın pozulmasına gətirib çıxara bilər.
- Gənc ailələrdə valideynlərlə birgəyayaşmaq motivasiyası demoqrafiq amillər üzrə dəyişir və cinsi fərqlərədn asılı olmayaraq ali və orta təhsilli, işləyən ailələrdə daha qabarıq təzahür edir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Gənc ailələrdə qarşılıqlı münasibətlərin öyrənilməsi ümumi psixologiyanın və şəxsiyyət psixologiyasının nəzəri müddəalrını zənginləşdirir, ailə probleminə, eləcə də şəxsiyyətin formalaşmasına milli zəmində yanaşılmasına, ailədə münasibət və ünsiyyətin səmərəli qurulmasına istiqamət verir. Tədqiqatdan irəli sürülən təkliflər ailə qurmağa hazırlaşan gənclərin, gənc ailələrin nəzəri cəhətdən biliklərlə zənginləşməsinə, onların övlad tərbiyəsini daha səmərəli yanaşmasına effektiv təsir göstərə bilər.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatdan əldə olunan nəticələrdən ailə tərbiyəsində, gənclərin ailə həyatına hazırlanmasında, ailədaxili münasibətlərin qurulmasında, ailədaxili münaqişələrin həll olunmasında geniş şəkildə istifadə oluna bilər. Tədqiqatın nəticələrindən valideynlər, müəllimlər, tələbələr, gənc ailələr üçün elmi-metodik, psixoloji ədəbiyyatın hazırlanmasında, etnopsixologiya, ailə psixolo-

giyası kursunun tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası**. Tədqiqatın nəticələri Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi psixologiya" kafedrasının elmi seminarlarındavə beynəlxalq konfranslarda məruzə və çıxışlarda müzakirə edilmişdir. Dissertasiyanın əsas məzmunu, başlıca müddəaları, nəticə və tövsiyələri elmi məqalə və məruzə tezisləri şəklində çap olunmuş əsərlərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim edilən müddəalar göstərilmiş, işin aprobasiyası haqqında məlumat verilmişdir.

Dissertasiyanın **"Gənc ailə probleminin ümumnəzəri məsələləri, mahiyyəti və ədəbiyyatda qoyuluşu"** adlanan I fəsli üç yarımfəsildən ibarətdir. I fəslin **"Gənc ailə probleminin mahiyyəti və ədəbiyyatda qoyuluşu"** adlanan birinci yarımfəslində ailə mühiti, ailə tərbiyəsi, ailədə qarşılıqlı münasibətlər, onun psixoloji xüsusiyyətləri açıqlanmışdır. Bu yarımfəsildə həmçinin gənc ailələrdə qarşılıqlı münasibətlər həm horizontal (ər-arvad münasibətləri), həm də vertikal (valideyn-övlad münasibətləri) araşdırılmışdır. Bununla bağlı rus və avropa psixoloqlarının (K.Levin, H.Tome, E.Erikson, J.Piaje, K.Rocers, S.L.Rubinşteyn, L.S.Vısqotski, V.N.Myasişev, İ.S.Kon, İ.V.Dubrovina və b.) əsərləri, nəzəri fikirləri təhlil olunub, ümumiləşdirilmişdir. Belə bir fikir öz əksini tapmışdır ki, ailə mühiti insanın həm özünün, həm də başqalarının dərk olunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu prosesin öyrənilməsi özünüdərkin gizli mexanizmlərinin araşdırılması üçün də əlverişli şərait yaradır. Bu, həm də uşağın şəxsiyyət kimi inkişafı və sosiallaşması baxımından da vacibdir.Bu yarımfəsildə göstərilir ki, gənclərin ailə həyatına hazırlanması erkən dövrlərdən başlamaqla həyatın bütün mərhələlərini əhatə edən çoxaspektli, mürəkkəb bir prosesdir. Ona düzgün hazırlaşmadıqda ailə həyatının sonu boşanma ilə başa çata bilər ki, bu da cəmiyyət üçün fəsadlar törədir.

Dissertasiyanın I fəslinin **“Azərbaycan mütəfəkkirləri, psixoloq və pedaqoqlarının əsərlərində ailə tərbiyəsi və ailədəki münasibətlər problemi”** adlanan ikinci yarımfəslində ailədaxili münasibətlər, ailə mühiti, ailədə tərbiyə məsələləri ilə bağlı milli-etnik dəyərlərə malik olan “Qabusnamə”, “Gülüstan”, “Əxlaqi-Nasiri” əsərləri, Azərbaycan psixoloqlarından Ə.Ə.Əlizadə, Ə.S.Bayramov, L.M.Qurbanova, R.İ.Əliyev, Z.N.Nəsrullayeva və başqalarının, pedaqoqlardan Ə.S.Həşimov, F.B.Sadıqov, İ.İ.Əliyev, O.Q.Həsənli, H.Ə.Əlizadə, R.M.Mahmudova və digərlərinin tədqiqatları təhlil olunur, onlara münasibət bildirilir. Bu tədqiqatlarda Azərbaycan ailəsinin milli xüsusiyyətləri, yaxın qohumların ailə həyatına təsiri, ailə və cəmiyyət münasibətləri, ailədə münaqişənin yaranma səbəbləri, oğlan və qızların cinsi tərbiyəsi, uşaqların psixi inkişafında ailənin rolu və s. məsələlər öz əksini tapmışdır. Bu yarımfəsildə göstərilir ki, ailədaxili münasibətlər bir tərəfdən adət-ənənələr, ictimai mühitlə sıx bağlıdırsa, digər tərəfdən də valideynlərin şəxsi keyfiyyətlərindən və tərbiyə üsullarından asılıdır.

Dissertasiyanın I fəslinin üçüncü yarımfəsli **“Gənclərin sosiallaşması və ailə həyatına münasibətinin psixoloji xüsusiyyətləri”** adlanır. Bu yarımfəsildə şəxsiyyətin sosiallaşmasında ictimai-tarixi, ideoloji, siyasi proseslərin təsiri araşdırılır. Göstərilir ki, baş verən dəyişikliklər ilk növbədə öz əksini nəsillər arasındakı anlama və münasibətlərdə tapır. Qeyd olunur ki, yaşlı və gənc nəsil arasında maddi və mənəvi dəyərlərə münasibət, dünyagörüşü sahəsindəki fərqlər heç də məqsədyönlü deyil, sadəcə cəmiyyət həyatında sürətlə gedən yeniləşmədən doğan bir prosesdir. Bu yarımfəsildə gənclərin sosiallaşması ilə ailə həyatına münasibəti arasındakı asılılıq, gənclərin tənhalığa, məsuliyyətdən qaçmağa, ailə qayğısı çəkməkdən azad olmaq istəyi və s. bu kimi psixoloji xüsusiyyətlər təhlil olunur. Bu yarımfəsildə qeyd olunur ki, düşüncə tərzi, həyata baxış, münasibətlər sistemi, ünsiyyət sferası gənclərin sosiallaşmasının, o cümlədən ailədaxili münasibətlərin əsasını təşkil edir. Burada başlıca yerlərdən birini də nəsillərarası münasibət və qarşılıqlı anlama tutur.Bütün bunlarla yanaşı bu yarımfəsildə ailə münasibətlərini müəyyən etmək üçün suallardan ibarət sorğu keçirildi. Sorğuda 18-25 yaş arasında olan 100 nəfərlə gənc iştrak etdi. Onlardan 50 nəfəri tələbə, 25 nəfəri işləyən, 25 nəfəri işləməyən gənclər idi. 30 nəfəri ailə quranlar, 70 nəfəri hələ ailə qurmayanlar idi. Anket sualı belə qoyulmuşdu: “Ailə qurduqdan sonra

valideynlərinizlə, yoxsa ayrı yaşamaq istərdiniz?". Ailələrin (30 nəfər ər-arvad) 9-u oğlanın valideynləri ilə, 6-sı ayrı yaşayır. Qayınana və qayınata ilə birgə yaşayan gəlindən beşi birgə yaşayışın dözülməz olduğunu, 2 nəfəri birgə yaşayışın müsbət, həm də mənfi tərəflərinin olduğunu, 2 nəfəri birgə yaşayışın daha münasib olduğunu bildirmişdir. Sorğunun nəticələri göstərdi ki, birgə yaşayan gəlin və oğulun ailəyə, valideynlərə qarşı münasibətləri fərqlidir. Gəlinlərin 55,6%-i, oğulların 33,3%-i ayrı yaşamağı daha üstün tutduqlarını bildirmişlər. Faktiki olaraq ailə quduqdan sonra ata-ana ilə yaşamaq istəynlər, yaşamaq istəyənləri  faiz nisbəti ilə azdır. Cinsi baxımdan qızlar daha çox ayrı yaşamağa üstünlük veririlər. Diqqəti cəlb edən cəhətlərdən biri də ondan ibarətdir ki, həm ailə qurub valideynləri ilə birgə yaşayan, həm də tələbə oğlanların daha çox faizi valideynlərlə birgə yaşamağa üstünlük verirlər. Gəlinlərin və qızların isə böyük əksəriyyəti müstəqil olmağa, ayrı yaşamağa üstünlük vermişlər.

Dissertasiyanın **"Gənc ailələrdə qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji xüsusiyyətləri, ailədaxili mühitin formalaşmasına təsir edən amillər"** adlanan II fəslinin birinci yarımfəsli **"Gənc ailələrdə qarşılıqlı münasibətlərin formalaşmasına təsir edən amillər"** adlanır. Bu yarımfəsildə gənc ailələrdə qarşılıqlı münasibətlər, ailənin tərbiyəedici funksiyası, ailənin strukturu, ailədə ilk uşağın dünyaya gəlməsilə onun psixoloji mühitində baş verən dəyişikliklər öyrənilir. Göstərilir ki, ilk uşaq doğulduqdan sonra ər-arvad münasibətlərində dəyişiklik baş verir, valideyn-övlad münasibətləri ön plana keçir. Valideynin uşağın tərbiyəsini düzgün qura bilməməsi, münasibətin qeyri-adekvat olması istər uşağın psixikasına, istərsə də şəxsiyyətinin formalaşmasına mənfi təsir göstərir.

Dissertasiyanın II fəslinin **"Gənc ailələrdə qarşılıqlı münasibətlərin formalaşmasında sosial-koqnitiv və sosial persepsiyanın rolu"** adlanan ikinci yarımfəsli qarşılıqlı münasibətlərin formalaşmasında sosial-koqnitiv və sosial persepsiyanın roluna həsr olunub. Burada qeyd olunur ki, gənc ailələrdə bəyənilmə və bəyənmə amili mühüm əhəmiyyət kəsb edir. Əks cinsdən olan şəxsə münasibət, simpatiya və antipatiya eyni zamanda sosial-koqnitiv və sosial persepsiyadan asılıdır. Bunlar isə daha çox intellektlə bağlıdır. Azərbaycanlı gənc ailələrlə keçirilən sorğunun nəticələri göstərir ki, qadınlar ərlərində intellekt, fiziki güc, pul qazana bilmək, zərərli vərdişlərin olmaması kimi

keyfiyyətləri yüksək qiymətləndirirlər. Kişilər isə qadınlarda yaraşıqlı, ailəcanlı, sözəbaxan olmaq kimi xüsusiyyətləri dəyərləndirirlər.

Dissertasiyanın II fəslinin **“Gənc ailələrdə valideyn-övlad münasibətləri və uşaq şəxsiyyətinin inkişafına onun təsiri”** adlanan üçüncü yarımfəsli ailədə psixoloji mühit, onun münasibətlər sisteminə təsiri, valideyn-övlad münasibətlərində təzahür edən neqativ hallar, onların uşaq psixikasına təsiri, ailədə uşaqların sayı, ər-arvad münasibətlərinin uşaq şəxsiyyətinin formalaşmasında rolu kimi məsələlərin təhlilinə həsr olunmuşdur. Aparılmış tədqiqatlar göstərir ki, valideyn-övlad arasında emosional bağlılıq olmadıqda uşaqlar özlərini narahat hiss edir. Valideynin bəzən tərbiyə ilə bağlı səhv təsəvvürləri uşağın tərbiyəsində və inkişafında boşluqlar yaradır. Bura başlıca olaraq iki amil təsir edir: ifrat qadağa və ifrat dərəcədə olan qəyyumluq. Bununla yanaşı bu yarımfəsildə gənc ailələrdə valideyn-övlad münasibətlərinin psixoloji məqamları təhlili edilir və problemə həsr olunmuş tədqiqatlar sistemləşdirlir.

Dissertasiyanın **“Ailədaxili mühitin formalaşmasının psixoloji xüsusiyyətləri”** adlanan III fəsli üç yarımfəsildən ibarətdir. Bu fəslin **“Gənc ailələrdə psixoloji mühitin formalaşmasına təsir edən amillər”** adlanan birinci yarımfəslində ilk uşağın dünyaya gəlməsilə ailə mühitində baş verən psixoloji dəyişikliklər, ər-arvad rollarına ata-ana rollarının əlavə olunması, onun təsiri ilə koqnitiv, şəxsi və sosial sferadakı yeniləşmə öyrənilir. Ailə quranadək ailə ilə bağlı təsəvvürlər və ailə qurandan sonra yaranan reallıqlar arasındakı asılılığın ailə həyatına təsiri təhlil olunur. Ailə həyatı quranadək təxəyyüldə yaradılan və reallıqdakı ailə həyatı arasındakı asılılığı, onlara təsir edən amilləri aşağıdakı cədvəldə veririk.

Cədvəl 3.1-dən göründüyü kimi, gənc ailələrdə istər-istəməz müəyyən problemlər yaşanır. Ailə həytı qurmazdan qabaq yaranmış sterotiplərin real vəziyyətə uyğunluğu ilə razılaşanların əksəriyyəti ali və orta təhsilli işləyənlərdir. Təsəvvürlərin uyğun gəlməsi isə daha çox işləməyən ailələrdə özünü göstəirir. Hesab edirik ki, burada özünü biruzə verən səbəblər psixoloji, iqtisadi və sosial səbəblərdir. Psixoloji səbəblərin özünü də müxtəlif qruplara ayırmaq olar. Bunlardan ilkin olanı psixoloji adaptasiyadır. İstər oxşar, istərsə də fərqli mühitdə böyüdüklərindən birgə yaşayış zamanı müəyyən fərqlər meydana çıxır.

Ailə həyatı quranadək təxəyyülündə yaratdığı ailə obrazı ilə reallıqdakı ailələri arasındakı fərq və ya uyğunluq

Cədvəl 3.1

| S.№ | Sorğuya cəlb olunanlar | Razı olanlar | Nisbətən razı olanlar | Narazı olanlar | Nisbətən narazı olanlar |
|---|---|---|---|---|---|
| 1. | Ali təhsilli, işləyənlər | 28 | 36 | 16 | 20 |
| 2. | Ali təhsilli, işləməyənlər | 21 | 29 | 19 | 31 |
| 3. | Orta təhsilli, işləyənlər | 36 | 22 | 15 | 27 |
| 4. | Orta təhsilli, işləməyənlər | 32 | 30 | 12 | 26 |
| 5. | Cəmi: (nəfərlə) | 117 | 117 | 62 | 104 |
| 6. | Cəmi: (faizlə) | 28,00 | 29,00 | 17,00 | 26,00 |

Müəyyən dövr ərzində onlar bir-birlərində olan mənfi və müsbət xüsusiyyətləri öyrənir, onun bəzilərini islah etdirir, bəzilərində güzəştə gedir, bəzilərini qəbul edirlər. Eləcə də hər bir tərəf özünün üzərində də korreksiya işi aparır. Bunlar alınmadıqda konflikt başlayır. Digər bir psixoloji problem təxəyyüldə yaradılanla reallıq arasında olandır. Adətən təxəyyüldə yaradılan daha cəlbedici olur. Ümumən təxəyyüldə yaradılanla reallıq arasında uyğunluq nisbəti çox az hallarda mümkün olur. Belə hallar frustrasiya elementlərinin ortaya çıxmasına zəmin yaradır.

Dissertasiyanın III fəslinin ikinci yarımfəsli **"Gənclərin şəxsiyyətinin formalaşmasında sosial mühitin rolu"** adlanır. Burada müasir Azərbaycan gənclərinin cəmiyyət həyatına transformasiyası, sosial norma, adət və ənənələrə münasibəti, ailə mühitinin, ictimai mühitin, təhsil səviyyəsinin təsiri məsələləri təhlil olunur. Qeyd edilir ki, müasir dövrdə gənclərin daha çox dəyər verdikləri maddi təminat, təhsil almaq, yaxşı iş tapmaq, karyera qurmaqdır. Bu isə onlarda praqmatik yanaşma, yaxşı təmin olunmuş həyat qurmaq motivindən irəli gəlir. Nəticədə yalnız istehlakçı tələbatlar yaranır.

Biz şəhər və əyalət gənclərinin planları, dəyərlər sistemi,

həyatda uğur qazanılması
üçün vacib olanlar barədə mövqelərini araşdırdıq. Araşdırmanın nəticələrini aşağıdakı cədvəldə veririk.

Əyalət və şəhər gənclərinin həyati planları və dəyərlər sistemi (%-lə)

Cədvəl 3.2

| s.n | Yaxın beş il üçün planları | Bakı şəhərində | | Digər şəhərlərdə | | Kəndlərdə | |
|---|---|---|---|---|---|---|---|
| | | oğlanlar | qızlar | oğlanlar | qızlar | oğlanlar | qızlar |
| 1 | Yaxşı təhsil almaq | 41 | 38 | 33 | 30 | 17 | 12 |
| 2 | Yaxşı işlə təmin olunmaq | 42 | 37 | 47 | 45 | 33 | 28 |
| 3 | Ailə qurmaq | 32 | 47 | 49 | 56 | 59 | 62 |
| 4 | Ata (ana) olmaq | 30 | 44 | 42 | 56 | 59 | 62 |
| 5 | Maddi cəhətdən təmin olunmaq | 47 | 35 | 37 | 31 | 23 | 20 |
| 6 | Maşın almaq | 39 | 19 | 32 | 10 | 28 | 3 |
| 7 | Başqa ölkəyə getmək | 15 | 7 | 13 | 5 | 3 | 2 |
| 8 | Mənzil problemini həll etmək | 22 | 16 | 18 | 9 | 8 | 3 |
| 9 | Sağlamlığın qayğısına qalmaq | 8 | 6 | 7 | 5 | 4 | 2 |
| 10 | İnsanlarla yaxşı münasibət qurmaq | 4 | 2 | 3 | 2 | 3 | 1 |
| 11 | Xarici dil öyrənmək | 15 | 7 | 11 | 4 | 2 | 1 |
| 12 | Dünyagörüşünü zənginləşdirmək | 6 | 3 | 4 | 2 | 2 | 1 |
| 13 | Bizneslə məşğul olmaq | 18 | 12 | 16 | 8 | 5 | 2 |

Cədvəl 3.2-dən göründüyü kimi, gəncləri ilk növbədə maddi təminat maraqlandırır. Eyni zamanda bu sahədə əyalətdə və şəhərdə yaşayanlar arasında xeyli fərq var. Lakin problemlə bağlı cinsi fərqlər böyük deyil.Bununla yanaşı tədqiqatda bəzi məqamları aydınlaşdırmaq üçün gənclərə hansı yaşda ialə qurmalarına üstünlük vermələri ilə bağlı suallar verildi. Sorğu göstərdi ki, gənclərin mövqeyi müxtəlifdir.

"Hansı yaşda ailə qurmağa üstünlük verədiniz" sualına gənclərin cavablarının göstəriciləri (%-lə)

Cədvəl 3.3

| S.№ | Gənclər | Yaş göstəriciləri | Bakı şəhəri | Sumqayıt şəhəri | Naxçıvan şəhəri | Kəndlərdə |
|---|---|---|---|---|---|---|
| 1. | Oğlanlar | 18-25 | 32,00 | 46.00 | 49.00 | 59.00 |
| 2. | Qızlar | 18-25 | 47.00 | 53.00 | 56.00 | 62.00 |

Gənclərin 51%-i 25 yaşınadək ailə qurmaq arzusunda olduqlarını bildirmişlər. Bununla belə oğlan və qızlar, eləcə də kənd və şəhər arasında fərqlər özünü göstərmişdir. Belə ki, Bakı şəhərində sorğuya cəlb olunan oğlanların 32%-i, Sumqayıt 46% və Naxçıvanda 49%-i, kəndlərdə isə 59%-i 25 yaşınadək ailə qurmaq arzusunda olduqlarını bildirmişlər. Qızlarda isə bu rəqəmlər uyğun olaraq belədir: Bakı şəhərində 47%, Sumqayıt 53% və Naxçıvanda 56%, kəndlərdə 62% gənc 25 yaşınadək ailə qurmaq istəyini göstərmişdir.Bu da onu göstərir ki, gənclər cinsi baxımdan asılı iolmayaraq əksər hissəsi 25 yaşa qədər ailə həyatı qurmaq istəyirlər.

Dissertasiyanın III fəslinin **"Gənc ailələrdə ailədaxili münasibətlərin gender aspektləri və onun sosial-psixoloji təsiri"** adlanan üçüncü yarımfəslində gənc ailələrdə ər və arvadın qadın və kişi rolları, əks cinsə dair psixoloji bilikləri, cinsi fərqlər və cinsi tərbiyə məsələləri araşdırılır. Müəyyənləşdirildi ki, müasir dövrdə cinslər arasındakı sosiogen determinantlar həyat və fəaliyyət sahəsində xeyli dəyişmişdir. Son dövrlərdə, xüsusilə qloballaşma şəraitində sosial həyatda qadınların aktiv iştirakı xeyli güclənmişdir. Nəticədə ailə həyatında bir sıra dəyişikliklər baş vermişdir. Sosial həyatda qadınların aktiv iştirakı

onların ailəyə, övlad tərbiyəsinə ayırdığı vaxtı bir qədər məhdudlaşdırmışdır. Digər bir istiqamət artıq yalnız kişinin ailə başçısı olmaqla bağlı təkhakimiyyətliliyinin xeyli azalmasıdır.

Bizi eyni zamanda ailə qurmaq və ailə qurarkən ər və arvadın seçilməsi motivləri maraqlandırmışdır. Bu məqsədlə Naxçıvan Müəllimlər İnstitutunda 35 tələbə oğlan və 35 tələbə qızla, eləcə də Naxçıvanda 50 ailə cütlüyü ilə sorğu keçirilmişdir. Sorğu keçirilənlərin yaş həddi 18-30 arasında olmuşdur. Sorğunun nəticələri ümumiləşdirilərkən məlum olmuşdur ki, oğlanların (kişilərin) 31%-i qarşılıqlı sevgini, 36%-i ailə rahatlığını, 25%-i maddi təminatı, 8%-i sadəcə ailə qurmağı əsas götürmüşlər. Qızların (qadınların) isə 39%-i qarşılıqlı anlaşmanı, bir-birlərini başa düşməyi, 36%-i ana olmağı, 18%-i maddi təminatı, 7%-i öz ailəsinin olmasını bildirmişlər.

Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, sosial-psixoloji baxımdan faktiki olaraq ailə-nigah münasibətlərinin bütün sahələrində cinsi fərqlər özünü göstərir. Bu cinsi fərqlərin nəzərə alınması ailənin sabitliyi baxımından vacibdir. Bu, ailədaxili konfliktlərin, boşanmaların, ailədə uşaqların sayının azalmasının qarşısının alınması baxımından əhəmiyyətlidir.

Ailədə qarşılıqlı münasibətlər, ailə mühiti və şəxsiyyətin formalaşmasına onun təsiri ilə bağlı psixoloji ədəbiyyatın öyrənilməsi, apardığımız tədqiqat aşağıdakı **nəticələrə** gəlmək imkanı verir:

- Gənc ailələrdə qarşılıqlı münasibətlər ailə həyatının ilk illərində ər və arvadın öz valideynləri ilə birgə yaşadığı ailə mühitinin təsiri altında formalaşır. Elə bu səbəbdən də bir çox hallarda münaqişə vəziyyəti yaranır.

- Gənc ailələrdə, xüsusilə ilk vaxtlar ər və arvadın rol gözləntiləri ilə reallıq arasında fərqlər meydana çıxır. Bu isə daha çox subyektiv qavrayışla bağlı olur. Situasiyanın dərk olunması, proseslərin düşüncə və davranışa pozitiv və ya neqativ təsiri mühüm rol oynayır.

- Müəyyənləşdirildi ki, ailənin yaranması, inkişafı və formalaşması müxtəlif mərhələlərdən keçir. Gənc ailələrdə ər və arvadın bir-birlərinə, eləcə də ailə həyatına adaptasiyası, mənzil, məişət problemlərinin həlli vəziyyəti, eyni zamanda tərəflər arasında qohumluq münasibətləri gənc ailənin psixoloji vəziyyətinə əsaslı təsir göstərir.

- Gənc ailələrdə qarşılıqlı münasibətlərin formalaşması gənclərin ailə həyatı qurmazdan ailə həyatı ilə bağlı təsəvvürlərindən, ailə

həyatına necə hazırlaşmalarından, valideynlərinin bir-birinə olan münasibətlərindən çox asılıdır. Ailə həyatı ilə bağlı birtərəfli təsəvvür, onun yalnız pozitiv və ya neqativ tərəflərinin qavranılması ailə həyatında öz əksini tapır.

- Ailə həyatını yalnız müsbət mənada təsəvvür edib, lakin onun müəyyən çətinliklərini qəbul etmək istəməyən ailələrdə ciddi problemlər yaranır. Bu isə ailə üzvlərinin psixikasında pozuntuların baş verməsinə səbəb ola bilər. Bunların içərisində dərk olunan və ya dərk olunmayan frustrasiya ilkin səbəblərdən biri kimi özünü göstərə bilər.

- Tədqiqatlar göstərir ki, eqoizmə istinad edərək qurulan ailələrdə tərəflər yalnız öz maraqlarını güddüklərindən onlarda özünəməxsus davranış üslubu formalaşır. Belə ki, əvvəlcə mübahisələr, sonra münaqişə, böhran baş verir, boşanmaya qədər davam edir.

- Aydın oldui, ailə həyatına hazır olmayan, onun çətinliklərini dərk etməyən gənclərin ailə həyatı kifayət qədər möhkəm olmur, onlar tez-tez münaqişə vəziyyətinə düşürlər. Psixoloji gərginliyi dəf edə bilməyən gənc ailə dağılır. Bir çox hallarda gənc ər və arvad özləri də sanki ailənin qorunmasını istəmirlər.

- Gənc ailələrdə ilk uşağın dünyaya gəlməsi ailə mühitinə ikili təsir göstərir. O, bir tərəfdən ailəni birləşdirir, möhkəmləndirir, digər tərəfdən narahatlıqlar yaradır. İlk növbədə ər-arvad münasibətlərində dəyişiklik baş verir. Ananın uşağa diqqətinin, qayğısının artması əlavə psixi və fiziki gərginliyə səbəb olur, asudə vaxt məhdudlaşır və s.

- Müəyyənləşdirildi ki, qadın və kişi psixologiyasındakı fərqlilikdən asılı olaraq onların arasında sosial-koqnitiv və sosial-perseptiv baxımdan fərqlər mövcuddur. Bunlar isə öz növbəsində ailədaxili münasibətlərdə öz əksini tapır.

Dissertasiyanın əsas məzmunu **müəllifin** çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. Gənc ailələrdə natamamalıq kompleksi və onun aradan qaldırılması yolları / Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları. Beynəlxalq Elmi Konfransının materialları. Bakı:Mütərcim,2014, s.106-107

2. Ailədə qarşılıqlı münasibətlər və uşaqların psixi inkişafına onun təsiri / Azərbaycanda təhsil quruculuğunun prioritetləri: Müasir yanaşmalar. Beynəlxalq Elmi Konfransının materialları. Bakı: Mütərcim, 2015, s.304-305

3. Uşaqların tərbiyə işinin təşkilində ailə və məktəbin birgə işi / "Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr" mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: 2015, s.91-93

4. Gənclərin sosiallaşması və ailə həyatına münasibətinin psixoloji xüsusiyyətləri // Təhsil Problemləri İnstitutunun Elmi Əsərləri, Bakı, 2015, №1, s.88-93

5. The role of social environment in the formation of youth personality // Науково-виробничий журнал Держава та региони. Серия: Гуманитарные науки. Класичний приватний университет, Украина, №3-4 , 2015ISSN 1813-341X , s.22-24

6. Gənc ailələrdə psixoloji mühitin formalaşmasına təsir edən amillər // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Humanitar elmlər seriyası, Naxçıvan, 2016, №4 (78), s.131-136

7. Gənc ailələrdə qarşılıqlı münasibətlərin formalaşmasında sosial-koqnitiv və sosial persepsiyanın rolu // Təhsil Problemləri İnstitutunun Elmi Əsərləri, Bakı, 2016, №1, s.157-161

8. Azərbaycan mütəfəkkirləri, psixoloq və pedaqoqların əsərlərində ailə tərbiyəsi və ailədəki münasibətlər problemi / Azərbaycanda təhsil siyasətinin prioritetləri: Müasir yanaşmalar" mövzusunda Beynəlxalq Elmi Konfransının materialları. Bakı: 2016, s.170-172

9. Gənc ailələrdə qarşılıqlı münasibətlərin formalaşmasına təsir edən amillər // Azərbaycan Dövlər Pedaqoji Universitetinin Elmi əsərləri, Bakı, 2017, №1 (16), s.51-59

10. General Theoretical Issues and Essence of Young Family Problems // EUROPEAN ACADEMIC RESEARCH, Vol.IV, Issue 12/March 2017, Impact Factor:3.4546 (UIF) DRJI, Value: 5.9 (B+), s.10223-10235

11. Gənc ailələrdə valideyn övlad münasibəti və şəxsiyyətin inkişafına onun təsiri // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Humanitar elmlər seriyası, Naxçıvan, 2017, №1 (82), s.213-215

**Кифаят Ханлар гызы Ахмедова**

**Психологические особенности взаимоотношений в молодых семьях**

## Резюме

Диссертационная работа посвящена одной из актуальных проблем Азербайджанского общества-психологических особенностей взаимоотношения молодых семьях.

Во введении обосновывается актуальность темы исследования, анализируется степень изученности проблемы, определяются цели и задачи исследования, методы и методология, раскрывается научная новизна, излагается теоретическая и практическая значимость.

В первой главе диссертации, названной «**Общетеоретические задачи проблемы молодой семьи, её сущность и постановка в литературе**» исследуются вопросы, связанные с проблемами молодой семьи рассматривается постановка задачи в литературе её сущность а также анализируются работы отечественных психологов и педагогов в сфере семейного воспитания и отношения в семье. В то же время рассматриваются психологические особенности отношения к семейной жизни и социализация молодёжи. Изучаются различные сферы семейной жизни и отношения между родителями и детьми.

Вторая глава диссертации, названная **«Психологические особенности формирования семейных взаимоотношений и факторы влияющие на формирование внутри семейной среды молодых семей»** анализируется вопросы влияющие на формирование факторов взаимоотношений в молодых семьях. В то же время в этой главе рассматриваются социально-когнитивные и социально перцептивная формирования особенности взаимоотношений в молодых семьях. Изучаются влияние молодой семьи на развитие личности ребенка и отношения между родителями и детьми. Также изучаются психологические проблемы первых лет семейной жизни.

Третья глава диссертации называется «**Психологические особенности формирования семейной среды в молодых семьях»**. Исследуются психологические факторы, влияющие на

формирование молодой семьи и влияние социальной среды на формирование личности молодых. В то же время, в этой главе рассматриваются гендерные аспекты внутри семейных отношений.

В заключительной части диссертации обобщены результаты исследовательской работы. Указывается, что изменилось отношения молодежи к семейной жизни как в позитивную, так и негативную сторону

**Kifayat Khanlar gizi Ahmadova**

**Psychological characteristics of the interrelations among young families**

**Summary**

The dissertation is devoted to analysis of the psychological features of the interrelations among young families. The marked topic is one of the actual problems which is facing current Azerbaijani society.

The dissertation consists of introduction, three chapters, conclusion and list of references.

In the introductory part the author describes relevance and scientific novelty of the research topic, the goals and objectives of the research, research methods and methodology. The author also gives review of the studies made by other scholars and analyzes theoretical and practical significance of the research.

The first chapter is entitled **“General theoretical tasks of the young family’s problem, its essence and formulation in the literature”.** Here the author considers the notion of the young family and problems related to its functionality, gives review of the literature in the context of the marked problem, analyzes monographs by the local psychologists and pedagogues in the area of family education and relationships in the family. The chapter is also devoted to describing a various spheres of family life and relations between parents and children, psychological features of the young relations toward family life and their socialization.

The second chapter of the dissertation is entitled **"Psychological feature of the formation family interrelations and factors’ influence to the formation of young families within the family environment"**. In this chapter the author examines the socio-cognitive and socially perceptive formation relationships among young families. The influence of the young family in the formation of the child's personality and interrelations between parents and children, the psychological problems of the early period of family life and the reasons for complications have been also researched.

The third chapter of the thesis is called **"Psychological characteristics of the formation the family environment among**

**young families."** The author explores psychological factors' influence to formation the young family and the influence of the social environment in the formation of the personality of youth. In this chapter the author examines the gender aspects within family relations and its impact on socio-psychological aspects of young families.

In conclusion, the author summarizes the main results of the conducted research and gives the original proposals about youth values towards family life. The author has revealed positive and negative changes in the youth view towards family life.

Sifariş № 119, tiraj 100
“OPTiMiST” çap mərkəzində çap olunub.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

КИФАЯТ ХАНЛАР гызы АХМЕДОВА

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ВЗАИМООТНОШЕНИЙ В МОЛОДЫХ СЕМЬЯХ

6107.01 – Общая психология

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку - 2018**